“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 may 2015-ci il    № 38 (1954)    Qiyməti 25 qəpik

## Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasseri qəbul ediblər.*

*Görüşdə 2016-cı ildə Bakıda keçiriləcək BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna hazırlıq prosesi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də UNESCO-nun baş direktoru xanım İrina Bokovanı qəbul ediblər.*

*Görüşdə UNESCO-nun baş direktoru xanım İrina Bokovanın Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakı yüksək dəyərləndirildi. Forumun artıq ənənəvi olaraq keçirildiyi və tədbirə marağın ildən-ilə artdığı məmnunluqla qeyd edildi. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından Forumun əhəmiyyəti xüsusi vurğulandı.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuuranı qəbul ediblər.*

*Görüşdə UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuura Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu məmnunluqla qeyd etdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü də ehtiramla xatırladı.*

* * *

*✓Mayın 18-də Bakıda "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı olub.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

* * *

*✓Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-da yerləşən Etnik Anlaşma Fondunun sədri Rabbi Mark Şnayeri qəbul edib.*

*Söhbət zamanı Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun dünyada multikulturalizm ənənələrinin yaşadılmasına mühüm töhfə olduğu bildirildi, onun mədəniyyətlərin bir-birinə daha da yaxınlaşması baxımından əhəmiyyəti vurğulandı. Bu tədbirin keçirilməsi Azərbaycanın beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfəsi kimi qiymətləndirildi.*

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Ordunu gücləndirməkdə əsas hədəfimiz torpaqlarımızı işğaldan azad etməkdir”

***Bu günlərdə internet saytlarından birində erməni hərbi ekspertin məqaləsinə rast gəldim və onun ordumuz haqqında fikirləri diqqətimi cəlb etdi. Onun açıqlamasına görə, "son illərdə Azərbaycan çox güclənib, hərbi büdcəsi dəfələrlə artırılıb. Azərbaycan hərbi potensialına güvənərək Qarabağ münaqişəsini istənilən vaxt həll edə bilər". Bu, sadəcə həqiqətin etirafıdır. Bizim ordumuz kifayət qədər güclüdür. Əlbəttə, dövlət başçımızın qeyd etdiyi kimi, "ordumuzu gücləndirməkdə əsas hədəfimiz torpaqlarımızı işğaldan azad etməkdir. Münaqişənin dinc yolla həllinə Azərbaycan etiraf etmir. Əgər beynəlxalq təşkilatlar dinc yolla torpaqlarımızın azad olunmasını istəyirlərsə, buyursunlar. Biz dəfələrlə bu iradəni ortaya qoymuşuq. Yox əgər bu, baş verməyəcəksə, beynəlxalq konvensiyalara görə də Azərbaycan torpaqlarını azad etmək hüququna malikdir".***



Müdafiə naziri general-polkovnik Zakir Həsənov da bütün diplomatik görüşlərində birmənalı şəkildə bəyan edir ki, Azərbaycan Ordusu cəbhədə vəziyyətə tam nəzarət edir. "Silahlı Qüvvələrimiz düşmənin bütün təxribatlarına cavab verir. Düşmən böyük itkilər verir. Xüsusilə qeyd etmək istəyirəm ki, son zamanlar düşmən ordusu vahimə içindədir".

Son vaxtlar ordumuzda şəxsi heyətin döyüş qabiliyyətinin güclənməsi göz qabağındadır, erməni silahlı bölmələrinin cəbhəboyu təxribatlarının qarşısı qətiyyətlə alınır və düşmən hərbi gücümüz qarşısında aciz qalaraq geri çəkilməyə məcbur olur. Bərdə rayonuna səfəri zamanı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ictimaiyyət nümayəndələri ilə görüşü zamanı bir daha ölkəmizin ən mühüm problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirmişdi ki, Ermənistan beynəlxalq hüquqa məhəl qoymur, qətnamələri icra etmir. Belə olan halda biz ancaq öz gücümüzə güvənməliyik.

Əslində Dağlıq Qarabağ probleminin illərdən bəri həll edilməməsi Azərbaycan cəmiyyətində müharibə çağırışlarına səbəb olur. Əgər bu problem beynəlxalq hüquq çərçivəsində həll edilsə idi, çoxdan öz həllini tapardı. Necə ola bilər ki, hansısa bir münaqişə bölgəsində iri dövlətlərin öz maraqları hiss olunursa, dərhal beynəlxalq öhdəliklərə uyğun olaraq konkret addımlar atılırsa, nədən uzun müddət keçsə də, ölkəmizin üzləşdiyi münaqişə həll edilməmiş qalır? Müharibə şəraitinin davam etməsi istənilən ölkəyə ağır zərbə vurur, onun sosial-iqtisadi və mədəni inkişafına maneələr yaradır.

2014-cü ilin avqustunda təmas xəttində yaranmış gərginlik Azərbaycan gənclərinin döyüş əhval-ruhiyyəsini daha da artırdı. Biz bu döyüşlərdə itki versək də, bütövlükdə cəmiyyətimiz hər bir şəhidi böyük izdihamla, hörmət və ehtiram hissi ilə dəfn etdi. Müxtəlif bölgələri təmsil edən, həmçinin dünyaya səpələnmiş soydaşlarımız ordu rəhbərliyinə müraciət edərək istənilən anda Vətən uğrunda hərbi əməliyyatlarda iştirak etmək istədiklərini bildirdilər. Ümumiyyətlə, son zamanlar Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən şəhid mövzusuna həssaslıqla yanaşılır, ölkənin ərazi bütövlüyü uğrunda həlak olan, yaxud sağlamlığını itirən hərbi qulluqçulara böyük sayğı göstərilir. Bundan əlavə, ordu sıralarında xidmət edən əsgərlərə diqqət və qayğı gücləndirilir. Bu gün ön xətdə döyüş növbətçiliyi aparan hərbi qulluqçuların sosial təminatına ciddi fikir verilir. Müdafiə naziri, həmçinin Silahlı Qüvvələrin Baş Qərargah rəisi, nazir müavinləri və idarə rəisləri müntəzəm surətdə cəbhə xəttindəki hərbi bölmələrə gedir, bilavasitə döyüşçünün özü ilə söhbət edərək onun qayğı və problemləri ilə yaxından maraqlanırlar. Xalqımızın ən sevimli bayramı olan Novruz günlərində ordu rəhbərliyi bayram axşamını səngərdə - əsgərlərlə birlikdə keçirtdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov bayram sevincini döyüşçülərlə bölüşdü, onlarla bir süfrədə çörək kəsdi. Bu, əsgərə göstərilən əsl ehtiramın bariz nümunəsidir. Bu qayğını, diqqəti hiss edən döyüşçü daha məğrur və qürurlu olur. İnanıram ki, həmin əsgərə döyüş əmri verilərsə, son nəfəsinə kimi silahını yerə qoymaz.

Qəzetimizin əməkdaşları daim ön xətdə yerləşən hərbi hissələrə ezamiyyətə gedir və səngər həyatı yaşayan gənclərimizlə görüşərək onların arzu və istəklərini qələmə alırlar. Dərc olunan bütün yazılar Vətənə övlad haqqını halal edərək torpaqlarımızı yağılardan qəhrəmanlıqla qoruyan oğullarımızdan bəhs edir. Hər addımda hiss edirsən ki, döyüşçülərin zaman-zaman xalqımıza qarşı olmazın əzab və işgəncələr törətmiş ermənilərə nifrəti güclüdür. Ali Baş Komandan döyüş əmri verərsə, onlar işğalçıları son nəfərinədək torpaqlarımızdan qovub çıxaracaqlar. Dövlət başçısının qeyd etdiyi kimi, "...Son vaxtlar Azərbaycan təmas xəttində üstünlüyü tam şəkildə təmin edib və bizim ordumuz, orduda xidmət edən gənclərimiz Vətəni ləyaqətlə qoruyurlar..."

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

# Fransalı senatordan Azərbaycana qarşı aparılan çirkin kampaniyaya kəskin etiraz

***Nüfuzlu "Le Huffington Post" informasiya portalında Fransa Senatının üzvü Natali Qulenin "Bakı oyunları, mətbuat dözümsüzlüyü oyunları" sərlövhəli məqaləsi yerləşdirilib.***

Məqalədə Azərbaycanın iyunun 12-28-də birinci Avropa Oyunlarına ev sahibliyi etməyə hazırlaşdığı xatırlanır. Təəssüflə qeyd edilir ki, bu Oyunlar ölkədə insan hüquqları və korrupsiya mövzularını qabardan "xoş niyyətli" məqalələr seli üçün bir fürsət yaradır. Hamı da tapşırığın yerinə yetirilməsindən həzz alan tonla danışır. Tapşırıq isə səfər etmədikləri bu ölkənin "reallıqlarını" insanlara çatdırmaqdır.

N.Qule yazır: "Bütün bunlar məni bir az bezdirməyə, hətta açıq desək, hiddətləndirməyə başlayır".

Senator vurğulayır ki, Azərbaycan gənc ölkədir, Cənubi Qafqazdakı müttəfiqimizdir. Ermənistan isə marionetkadır. Azərbaycan uzun müddətdir nasizmə qarşı mübarizədə müttəfiq olub və olmaqda da davam edir. İkinci Dünya müharibəsində azərbaycanlı döyüşçü və partizanlardan ibarət çoxsaylı kontingent müttəfiqlərin tərəfində vuruşub. Həmçinin Aveyronda, Rodezdə müqavimət hərəkatının azərbaycanlı iştirakçılarına, həlak olanlara abidə ucaldılıb.

Bununla belə, Qafqazda elan edilməyən müharibə nəticəsində Azərbaycan 20 ildən artıqdır ki, ərazisinin 20 faizinin işğalı ilə üzləşib. Qonşu Ermənistan Dağlıq Qarabağdan başqa Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonlarını da işğal altında saxlayır. Bu bölgə və 7 rayon beynəlxalq hüququn pozulması nəticəsində işğal olunub və ötən həftə Fransa bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib.

Nəhayət, Azərbaycan terrorçuluğa qarşı mübarizədə və Qafqazın təhlükəsizliyində strateji tərəfdaşımızdır. Bununla belə, müttəfiqimizlə olduqca pis davranırıq. Bütün bunlar bu ölkənin siyasi kamilliyinin əlamətləri olan dini azadlığın, dünyəviliyin tam təmin edilməsinə, onun İslam Əməkdaşlıq Təşkilatına üzv olaraq İsrail ilə diplomatik və iqtisadi münasibətlərin saxlanmasına, Ermənistanla münaqişədə ola-ola, yenə də Avropa Şurasının demokratik meyarlarına nail olmaq üçün səylər göstərməsinə baxmayaraq baş verir.

Müəllif vurğulayır ki, Azərbaycanın birinci xanımı mədəni və humanitar diplomatiyanı ehtiva edən layihələrə töhfə vermiş Heydər Əliyev Fonduna müdrik şəkildə rəhbərlik edir. Dünya muzeylərinə, mədəniyyət əsərlərinə dəstək verilir, Pakistanda və çətin vəziyyətdə olan digər ölkələrdə məktəb və xəstəxanalar açılır. Buna baxmayaraq "xoş niyyətli" dairələr bunu yenə də dəstək almaq cəhdi kimi qələmə verməyə çalışırlar. Həmin işləri gözdən salmaq üçün edilən cəhdlər faktların saxtalaşdırılmasından başqa bir şey deyil.

"Mən bu ölkənin dostuyam. Mən onun xalqını tanıyıram. Mən Ermənistanın işğal etdiyi rayonlardan qovulmuş bir milyon qaçqın və məcburi köçkünün qayıtması üçün çalışıram. Bakının parıltısından kənarda yaşayan sadə və ləyaqətli yüz minlərlə insan Prezidentin ölkənin ərazi bütövlüyünün bərpasına yönəlmiş fəaliyyətini dəstəkləyir.

Məni bu ölkə və onun xalqı ilə uzun və əsl dostluq bağlayır. İstərdim ki, tərəfkeş jurnalistlər bu ölkəyə obyektiv yanaşsınlar. Bu ölkə tam inkişaf edən müttəfiqdir. Onun yeganə arzusu sülh şəraitində yaşamaqdır. Beləliklə, Azərbaycan ərazi bütövlüyü əsasında bərpa edilmiş sərhədləri çərçivəsində sabitliyə və regional inkişafa töhfə verməyi arzulayır", - deyə N.Qule yazır.

**AZƏRTAC-ın materialları əsasında**

# “Hərb elminin inkişaf perspektivləri” mövzusunda birinci respublika elmi-praktik konfransı



***Mayın 16-da Müdafiə nazirinin təsdiq etdiyi "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 2015-ci ildə elmi iş planı"na əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında "Hərb elminin inkişaf perspektivləri" mövzusunda birinci respublika elmi-praktik konfransı keçirilib.***

Konfransda ölkənin 40-dan artıq nazirlik, komitə, ali təhsil müəssisəsi, idarə və elmi mərkəzlərindən 350 nəfərədək nümayəndə iştirak edib.

Tədbir ümummilli liderimiz Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin ifasından sonra açıq elan edilib.

Təbrik sözü ilə çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin təməlinin ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bölgənin ən güclü ordusu olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri deyib: "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası və Hərbi doktrina Silahlı Qüvvələrin inkişafının istiqamətlərini müəyyən edən əsas sənədlərdir. Bu gün Silahlı Qüvvələrdə aparılan islahatlar bütün sahələrdə uğurla həyata keçirilir. Görülən bu işlər öz bəhrəsini verir. Silahlı Qüvvələrimizin bölmələri qoşunların təmas xəttində tam üstünlüyə nail olub.

Hazırda ordunun təminatında ən müasir, keyfiyyətli silahı və döyüş texnikası vardır. Eyni zamanda bu texnikanı, silah sistemlərini idarə etməyi bacaran yüksək elmi, nəzəri və praktiki bacarıqlara malik olan şəxsi heyətin yetişdirilməsi Silahlı Qüvvələrin rəhbərliyinin qarşısında duran əsas vəzifələrdən biridir.

Məhz bu səbəbdən Müdafiə Nazirliyinə tabe olan xüsusi təyinatlı təhsil müəssisələrinin ölkənin qabaqcıl təhsil ocaqları ilə qarşılıqlı əməkdaşlığının daim inkişaf etdirilməsi həyata keçirilir və bu iş qısa zaman ərzində öz nəticəsini göstərəcəkdir".

Sonra Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev "Hərb elmi və hərbi təhsil: inkişaf və perspektivlər", Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov "Hərb elminin inkişafında informasiya texnologiyalarının rolu", Prezident yanında İdarəçilik Akademiyasının Strateji Araşdırmalar İnstitutunun direktoru Elman Nəsirov "Ümummilli lider Heydər Əliyevin hərb elminin inkişafındakı rolu" mövzularında, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Arif Mehdiyev, Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsi sədrinin müavini Aydın Mirzəzadə, Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev geniş məruzələrlə çıxış ediblər.



Sonra Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyevə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adının verilməsi barədə attestat təqdim olunub.

Konfransın plenar hissəsi başa çatdıqdan sonra iştirakçılar hərbi-nəzəri, hərbi-texniki, milli təhlükəsizlik, hərbi-humanitar və hərbi təbabət bölmələrində fəaliyyətləri davam etdirərək elmi məruzələri dinləyiblər.

Sonda konfransda bildirilib ki, ilk dəfə bu mövzuda keçirilən elmi-praktik cəhətdən əhəmiyyətli olan tədbir qarşıya qoyulan bir sıra məsələlərin həllinə nail olunmasına yardım edib. Konfransda səsləndirilən çıxışlar, məruzələr, o cümlədən 150 müəllifdən konfransın təşkilat komitəsinə daxil olmuş 100-dən artıq elmi məqalə toplanaraq dərc ediləcəkdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi Belçika Krallığına səfər edib

Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Brüsseldəki mənzil-qərargahında Şimali Atlantika Alyansının Hərbi Komitəsinin "Tərəfdaşlığın uyarlılıq təşəbbüsü" və "Qətiyyətli dəstək" missiyalarına töhfə verən qeyri-NATO ölkələri ilə Baş Qərargah rəisləri səviyyəsində mayın 20-də keçiriləcək görüşlərdə iştirak etmək üçün Belçika Krallığına səfər edib.

Görüşlərdə hərbi əməkdaşlıq, Əfqanıstandakı vəziyyət, əməliyyat şəraitindəki dəyişikliklər və onların Əfqan Milli Təhlükəsizlik Qüvvələrinə təsiri və digər məsələlər müzakirə olunacaqdır.

Səfər mayın 21-dək davam edəcəkdir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***19 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 69 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Barekamavan, İcevan rayonunun Vazaşen, Paravakar, Berkaber kəndlərində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Qaymaqlı, Qızılhacılı kəndlərində, Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Yarımca, Göyarx, Çiləbürt, Çaylı, Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Kəngərli, Baş Qərvənd, Qiyaməddinli, Sarıcalı, Novruzlu, Cəvahirli, Füzuli rayonunun Alxanlı, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Müdafiə naziri yeni tədris və inzibati binaların açılışında iştirak edib







***Mayın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi və Silahlı Qüvvələrin Hərbi Akademiyasının əsaslı təmir olunmuş yeni tədris və inzibati korpuslarının açılışı mərasimində iştirak edib.***

Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Akademiyanın ikimərtəbəli binasında ümummilli liderimiz Heydər Əliyev irsinin öyrənilməsi otağı ilə tanış olub, burada yerləşən Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursunun iş, sinif, müəllim otaqlarına, eyni zamanda yeni elektron kitabxana, müasir standartlara cavab verən laboratoriya və müşavirə zalına baxış keçirib.

Müdafiə nazirinə məruzə edilib ki, qısa zamanda Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi və Silahlı Qüvvələrin Hərbi Akademiyasında yeni lokal şəbəkə qurulub, eyni zamanda binanın tədris hissəsində müxtəlif təyinatlı müasir sinif otaqları yaradılıb.

Hərbi Akademiyanın binasındakı Adyunktura sinifləri və elmi-tədqiqat laboratoriyaları müasir standartlara uyğun tərtib edilərək gələcəyin hərb elmi tədqiqatçılarının istifadəsinə təqdim edilib.

Sonda Müdafiə naziri gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan işlərlə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycanın Müdafiə naziri Türkiyənin Hərbi Akademiyalar rəisi ilə görüşüb



***Mayın 19-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Hərbi Akademiyalar rəisi, ordu generalı Abdullah Rəcəbin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə naziri qonağı salamlayaraq Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlığın daim yüksələn xətt üzrə inkişaf etdiyini, strateji tərəfdaşlıq və qardaşlıq münasibətlərinin gündən-günə möhkəmləndiyini vurğulayıb.

Nazir Türkiyə Hərbi Akademiyalarında təhsil alacaq zabitlərin və mütəxəssislərin sayının artırılması, Azərbaycan hərbçilərinin müxtəlif kurslara ezam olunması məsələlərinin vacibliyini qeyd edib, belə tədbirlərin planlı, kompleks şəkildə həyata keçirilməsinə dair fikirlərini bölüşüb. Bu kimi tədbirlərin hər iki qardaş ölkə üçün səmərəli olduğunu vurğulayan Müdafiə naziri general-polkovnik Zakir Həsənov deyib: "İnanıram ki, biz indi gördüyümüz bu işlərlə gələcək uğurların təməlini qoyuruq. Əlaqələrimiz inkişaf etdikcə, yaxın gələcəkdə indi atdığımız addımların müsbət bəhrəsini görəcəyik".

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Səmimi qəbul üçün təşəkkürünü bildirən ordu generalı Abdullah Rəcəb ölkələrimiz arasında əlaqələrin qədim tarixi köklərə, mehriban dostluq, qardaşlıq münasibətlərinə əsaslandığını bildirib. O, Türkiyə-Azərbaycan tərəfdaşlığının vacibliyini bir daha vurğulayıb.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki səfiri İsmayıl Alper Coşqun və hərbi attaşe, briqada generalı Hasan Nevzat Taşdeler iştirak ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Türk əsgəri intizamlı, bacarıqlı və döyüşkəndir



***Ötən həftə hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycan-Türkiyə Silahlı Qüvvələri arasında birgə taktiki təlimlər keçirilib. Təlimlərdə 1000 nəfərədək şəxsi heyət, 80-dək zirehli texnika, 60-dan çox artilleriya qurğusu və minaatanlar, Hərbi Hava Qüvvələrinin 12 ədəd döyüş və nəqliyyat helikopteri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edib.***

Türkiyə Silahlı Qüvvələrinin polkovniki Mehmet Dursun birgə təlimlərin hər iki ölkə üçün əhəmiyyətli olduğunu bildirərək qeyd edib ki, təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirmək, qarşılıqlı anlaşmanı, koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmanı, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Mehmet Dursun Azərbaycan və ordumuz haqqında fikirlərini bildirməyi də unutmadı.

"Hava limanına endiyimiz andan çox gözəl qarşılandıq. Başda Ordu birləşməsinin komandiri polkovnik İlqar Lətifov olmaqla, hər kəs bizə qayğı ilə yanaşdı. Özümüzü Vətəndəki kimi hiss etdik, heç bir yadlıq duymadıq. Azərbaycan Ordusunda texnika, təminat yüksək səviyyədədir. Ordu quruculuğunda bu və ya digər dərəcədə təkmilləşdirmə aparılıb. Tarix boyu türk milləti olaraq döyüşlərdə zəfər qazanmışıq. Türk əsgəri intizamlı, bacarıqlı və döyüşkəndir. Azərbaycan və türk əsgərinin birgə təlimlərdə iştirak etməsi əsgəri əlaqələrin, anlaşmanın yaxşılaşmasına xidmət edir. Təlimlər uğurla başa çatdı. Müdafiə Nazirliyi tərəfindən yaradılan şəraitdən, diqqət və qayğıdan çox razıyıq. Azərbaycan, Bakı gözəlləşib. Çox maraqlı və gəzməli yerləri var".

Sonda Azərbaycandan gözəl xatirələrlə qayıtdığını deyən Mehmet Dursun hər kəsə minnətdarlığını bildirdi.

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**



*Milli Qəhrəmanlarımız*

# Şuşanın əfsanəvi müdafiəçisi

## Yəhudi əsilli Albert Aqarunov Bakıda anadan olmuşdu və Azərbaycanı doğma Vətəni bilirdi...





Keçən əsrin sonlarına yaxın tarixi havadarlarından dəstək alan mənfur qonşularımız sərhədboyu ərazilərimizə genişmiqyaslı silahlı basqınlara başlayanda xalqımızın vətənpərvər oğulları torpaqlarımızın bütövlüyü naminə silaha sarılaraq cəbhəyə yollandılar. O zaman respublikamızdan kənarda yaşayan təəssübkeş soydaşlarımız da Vətənə dönərək yurdumuza göz dikən erməni quldurlarına qarşı mübarizəyə qoşuldular. Tarix boyu Azərbaycan xalqı ilə birlikdə mehriban şəraitdə yaşayan başqa millətlərin nümayəndələri - Oleq Mamontov, Albert Aqarunov və Yuri Kovalyov kimi oğullar da doğulub boya-başa çatdıqları Vətənin müdafiəsində mərdliklə iştirak etdilər. Onların qəhrəmanlığı və şücaəti illər ötsə də, xalqımızın yaddaşında əbədi qalacaq, gələcək nəsillər tərəfindən daim xatırlanacaq.

Bu günlərdə Azərbaycanın Milli Qəhrəmanı, "Şuşanın əfsanəsi" adlandırılan Albert Aqarunovun Şəhidlər xiyabanındakı məzarı önündə anım tədbiri keçirilib. Tədbirdə Milli Məclisin deputatı Yevda Abramov, İsrail dövlətinin ölkəmizdəki səfirliyinin 1-ci katibi Ronen Krauz, qəhrəmanın qardaşları Rantik və Yura Aqarunovlar, 1-ci tank taborunun keçmiş komandiri ehtiyatda olan kapitan Hacı Əzimov, döyüşçü yoldaşları, həmçinin qəhrəmanın adını daşıyan Suraxanı rayon 154 saylı məktəbin müəllim-şagird kollektivi və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə balaca məktəblilər əfsanəvi tankçıya həsr olunmuş şeirlər söylədilər. Sonra Milli Məclisin deputatı Yevda Abramov Albertin təkcə yəhudi millətinin deyil, Azərbaycan xalqının da şanlı övladı olmasından qürur duyduğunu bildirib. "Hər il xatirə günlərində Albertin məzarını ziyarətə gələnləri görəndə ürəyim dağa dönür. Əsrlər boyu bir torpaqda yaşayan xalqlarımızın birliyi sarsılmazdır. Azərbaycanın başı üzərini qara buludlar alanda Albert də erməni nankorluğuna dözə bilməyib Vətən uğrunda döyüşlərə getmişdi. Şuşalılar bu gün də onun igidliklərindən ürəkdolusu danışırlar. Albert öz qəhrəmanlığı ilə Azərbaycan və yəhudi xalqlarının qardaşlıq rəmzinə çevrilib", - deyə deputat vurğulayıb.

A.Aqarunovun xidmət etdiyi 1-ci tank taborunun keçmiş komandiri Hacı Əzimov onunla bağlı xatirələrindən danışıb. "Albert erməni yaraqlılarına qarşı ağır döyüşlərə atıldığı ilk günlərdən qeyri-adi çevikliyi, verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirməsi, döyüş texnikasından məharətlə istifadə etmək bacarığı ilə seçilirdi. İntizamlı, hərtərəfli hərbi hazırlığa malik olduğuna görə Albert qısa vaxtda tank komandiri təyin edilərək Şuşa cəbhəsinə göndərilir. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən ağır döyüşlərdə azğın düşmənin xeyli canlı qüvvəsini, çoxlu sayda zirehli texnikasını məhv edir. Əfsanəvi tankçı 1992-ci il mayın 8-də çox sevdiyi qədim və səfalı Şuşanın müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Biz keçmiş döyüşçülər əziz silahdaşımızın qisasını almağa və ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin torpaqlarımızı düşməndən azad etmək əmrinə hər an hazırıq", - deyə keçmiş komandir vurğulayıb.

- Hələ Albertin igidliyinə çox dastanlar söyləniləcək, - deyən tank komandiri Ağa Qasımov da qəhrəmanla bağlı təəssüratlarını bölüşüb.

Döyüşçü yoldaşı Sərrac Mustafayev isə Albertin şəhid olmasından və Xocalı faciəsindən sonra düşmənə qarşı hədsiz nifrətindən danışıb.

Anım tədbiri qəhrəmanın adına əbədiləşdirilən 154 saylı məktəbin müəllim və şagird kollektivinin Hərb Tarixi Muzeyinə ekskursiyası ilə başa çatıb.

# Şəhidlik zirvəsinə ucaldı



***Azərbaycan qəhrəmanlar ölkəsidir. Bu torpaq tarixin hər dönəmində Cavanşirlər, Babəklər, Xətailər, Cavadxanlar, faşizmlə mübarizədə Həzilər, Mehdilər, erməni qəsbkarlarını pərən-pərən salan Mübarizlər yetirib. Qəhrəmanlıq Vətən sevgisindən doğulur. Adını qəhrəmanlıq tarixinə yazan Cəlil də tale yolunu - şəhidlik zirvəsinə aparan yolu seçmişdi...***



Bu günlərdə Azərbaycanın Milli Qəhrəmanı Cəlil Səfərovun anım mərasimi onun vaxtilə təhsil aldığı Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilib. Tədbirdə liseyin rəisi general-mayor Mirzə Almasov, Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədr müavini Asif Şirinov, şəhidin ailə üzvləri və digər ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin bir dəqiqəlik sükutla anılması ilə başlayıb. Dövlət himninin səsləndirilməsindən sonra liseyin zabiti polkovnik-leytenant Şahin Xankişiyev tədbiri açıq elan edib. O, Qarabağ müharibəsində Vətənin yüzlərlə igid oğlunun doğma torpaq uğrunda canını fəda edərək şəhidlik zirvəsinə ucalmasından danışıb. "Vətəni sevən, Vətən yolunda canından keçən qəhrəmanlar heç zaman unudulmur, qədirbilən xalqımızın qəlbində əbədi yaşayırlar. Onlar şərəf və qeyrət rəmzi kimi xatırlanır, gənc nəsillərə nümunə olaraq təqdim olunur. Bu gün anım gününə toplaşdığımız Cəlil Səfərovun ömür yolu kimi...", - deyə Ş.Xankişiyev çıxışını bitirib.

Müstəqilliyini yenicə bərpa edən ölkəmizin ordu quruculuğunda peşəkar zabitlərə ehtiyac olduğu üçün Vətənə dönən soydaşlarımızdan biri də Cəlil idi... C.Səfərov Azərbaycan Respublikası Müdafiə Nazirliyində mühüm vəzifəyə təyin edilir. O, Dağlıq Qarabağa ezam olunaraq, Şuşaya hərbi əməliyyatlara göndərilir. Dinc sakinlərin təhlükəsiz yerlərə köçürülməsində onun da müstəsna xidmətləri olur. Təcrübəli zabit C.Səfərov 1992-ci il mayın 15-də Şuşa rayonunun Turşsu-Zarıslı istiqamətində gedən ağır döyüşlərdə onlarla erməni yaraqlısını məhv edərək, düşmən gülləsinə tuş gəlir, şəhidlik zirvəsinə ucalır. Bu gün Milli Qəhrəman C.Səfərovun məzarı Bakıda minlərlə insanın ziyarət etdiyi bir məkanda - Şəhidlər Xiyabanındadır.

Tədbir iştirakçıları Milli Qəhrəmanın müəllimi olmuş, onu yaxından tanıyan respublikanın əməkdar müəllimi Abbas Abbasovun C.Səfərovla bağlı xatirələrini maraqla dinləyiblər.

Anım mərasimi qəhrəmanın ömür yolundan bəhs edən videoçarxın nümayişi ilə davam edib. Sonra səhnəyə dəvət olunan Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev liseyin kursantlarına ürək sözlərini, tövsiyələrini çatdırıb.



Azərbaycan Respublikası Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədr müavini Asif Şirinov qəhrəmanlarımızın xalq tərəfindən daim yad edilməsindən və onların anım mərasimlərinin keçirilməsindən danışıb.

Tədbirdə çıxış üçün söz alan qəhrəmanın oğlu Əziz Səfərov bu anım mərasiminin təşkilinə görə Müdafiə Nazirliyinin, liseyin rəhbərliyinə dərin minnətdarlığını ifadə edərək üzünü kursantlara tutub və "Sizin peşə seçiminiz çox düzgündür. Bu gün torpaqlarımızı düşməndən azad etmək sizin gələcək xidmətlərinizdən asılıdır. Sizə ən müqəddəs peşə - Vətəni qorumaq peşəsi nəsib olub və bu müqəddəs yolda hər birinizə uğurlar arzulayıram", - deyə yeniyetmə kursantlara tövsiyələrini çatdırıb.

Milli Qəhrəman C.Səfərovun xatirəsinə həsr olunmuş anım mərasimi liseyin özfəaliyyət kollektivinin və Mərkəzi Zabitlər Evinin musiqi üçlüyünün təşkil etdiyi konsert proqramı ilə yekunlaşıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Tapşırıq vaxtında yerinə yetirildi...



- Şəxsi heyətin döyüş hazırlığının artırılması üçün müntəzəm olaraq hərbi hissədə təlim-məşqlər keçirilir, - deyə polkovnik-leytenant Elsevər Orucov sözə başladı. - Müxtəlif təyinatlar üzrə təlim keçmək üçün hərbi hissənin ərazisində hərtərəfli şərait var. Bölük və taqım komandirləri dərs prosesində mövcud olan imkan və şəraitdən yetərincə bəhrələnməyə çalışırlar. Əsas məqsəd şəxsi heyətin döyüş hazırlığını artırmaqdır.

Qısa söhbətdən sonra zabit Elsevər Orucovla birlikdə ponton-körpü taborunun şəxsi heyətinin təlimini izlədik. Əvvəlcə tabor komandiri mayor Cavid Cabbarov və taqım komandiri leytenant Nicat Vəliyev təhlükəsizlik qaydalarını bir daha əsgərlərin diqqətinə çatdırdılar. Sonra körpü dəstləri suya salındı. Quraşdırılacaq körpünün yükgötürmə qabiliyyəti 20 tondur. Əllərində müxtəlif alətlər olan əsgərlər cəld hərəkətlərlə üzərlərinə düşən tapşırıqları yerinə yetirməyə başladılar. Katerlərin mühərriki işə salındı. Uğuldayan katerlər sakit dayanmış suları yarıb irəli şığıdı. Şəxsi heyət bütün qüvvəsi ilə tapşırığı yerinə yetirirdi. Komandirlər isə diqqətlə təlimin gedişini izləyir, lazımi məsləhət və tövsiyələrini verirdilər. Çox keçmədi ki, taborun şəxsi heyəti körpü dəstlərini təyin olunan vaxt çərçivəsində quraşdırdılar. Qarşıya qoyulan tapşırıq vaxtında və peşəkarlıqla yerinə yetirildi. Zirehli texnikanın və canlı qüvvənin suyun üzərindən keçməsi üçün keçid yaradıldı. Körpü dəstlərinin quraşdırılması zamanı heç bir səhvə yol verilmədi. Uğurla başa çatan bu təlim bir daha göstərdi ki, şəxsi heyətin döyüş hazırlığı yüksəkdir.

Təlimdə taqım komandirlərindən baş leytenant Vüsal Cəfərov, leytenant Elvin Gülməmmədov, əsgərlərdən Elsevər Allahverdiyev, Mirsamir Ağalarov və başqaları fərqləndilər. Nümunəvi hərbi qulluqçular polkovnik-leytenant İlqar Nəciyev tərəfindən fəxri fərmanlarla mükafatlandırıldı.

**V. MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**



*Texniki xidmət*

# Silah və döyüş texnikalarına qulluq günü...

Hər həftənin şənbə günündə hərbi hissələrdə park-təsərrüfat işləri görülür. Əsgər yataqxanalarında, avtomobil parklarında, hərbi hissənin ərazisində və başqa yerlərdə həmin gün təmizlik işləri aparılır. Hərbi hissə komandirinin təsdiq etdiyi planda bunların hamısı ayrı-ayrılıqda göstərilir. Bu məqsədlə cəbhə bölgəsində yeni istifadəyə verilmiş hərbi şəhərcikdə oldum. Əsgərlər qruplara bölünərək komandirlərin rəhbərliyi ilə iş görürdü. Mayor İbad Qəhrəmanov hərbi şəhərciyin ərazisində, yaşayış və qeyri-yaşayış binalarında, avtomobil parkında görülən təmizlik və abadlıq işlərinə nəzarət edirdi. Əsgərlərin bir qismi çöl təliminə hazırlıq görürdü. Onlar anbarlarda olan alaçıq dəstlərini sıra meydanında silib-təmizləyirdilər. Çünki yaxın günlərdə əsgərlər bir neçə günlük poliqona çıxacaqlar. Park-təsərrüfat günü həm də əsgərlərin bu kimi çıxışlara hazırlaşmaları üçün əlverişli gün hesab olunur.

Mayor İ.Qəhrəmanov deyir ki, hər təlimə ciddi hazırlaşmaq vacibdir. Çünki əsgərlər səhra şəraitində bir neçə gün qalacaqlar. Təlimi yüksək səviyyədə başa vurmaq üçün tələb olunan əsas şərtlərdən biri təminatdır. Daim çalışırıq ki, təminat sarıdan problemimiz olmasın.

Əsgərlərin daha çox çalışdıqları yer avtomobil parkı idi. Onlar saxlanclarda olan silahları, döyüş texnikalarını silib-təmizləyir, döyüşə və istifadəyə yararlığını yoxlayırdılar. Zabit İbad Qəhrəmanov bacarıqlı sürücülərdən əsgər Vüsal Paşazadənin adını çəkdi. Bildirdi ki, Vüsal xidməti istifadəsində olan yük avtomobilini həmişə saz vəziyyətdə saxlayır. Onun idarə etdiyi avtomobil tez-tez səfərdə olur. Hər dəfə parka qayıdandan sonra sürücü maşına texniki qulluq göstərməklə onun növbəti çıxışa hazırlığını təmin edir. Budur, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər V.Paşazadə matorun yağını, suyunu yoxlayır. Hər şeyin normada olduğunu deyir. Daha sonra avtomobil üçün gərəkli olan hava filtirinin istifadəyə yararlığını nəzərdən keçirir.

Əsgər deyir ki, avtomobildə hər hansı detal sıradan çıxarsa, komandirə məlumat verir və qısa zamanda yararsız hissə yenisi ilə əvəzlənir.

Avtomobil parkında texnikalara yüksək texniki qulluq göstərilməkdədir. Biz isə burada gördüklərimizi qeydə alıb parkı tərk edirik. Ancaq əsgərlər komandirlərin başçılığı ilə park-təsərrüfat gününün planına uyğun işlərini davam etdirirdilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ərazisində Suriyaya məxsus helikopter vurulub



Təxminən beş dəqiqə müddətində Türkiyə ərazisində uçuş edən Suriyaya məxsus helikopter Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcısı tərəfindən vurulub.

Faktı təsdiqləyən Türkiyənin Müdafiə naziri İsmət Yılmaz deyib ki, ona verilən məlumatlarda vurulan hava nəqliyyatının helikopter olduğu bildirilir.

Lakin Suriya ərazisinə düşdüyündən hələlik vurulan hava nəqliyyatının növü barədə dəqiq məlumat əldə etmək mümkün olmayıb.

### Texasda atışma: 9 nəfər həlak olub, 18 nəfər yaralanıb



ABŞ-ın Texas ştatındakı Ueyko şəhərində baykerlər arasında baş verən atışmada 9 nəfər həlak olub, 18 nəfər isə yaralanıb.

AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, şəhərin restoranlarının birində başlanan mübahisə sonradan kütləvi davaya çevrilib. Əvvəlcə soyuq silahlar - bıçaq, zəncir, dəyənək, ardınca isə odlu silahlar işə düşüb. Nəticədə səkkiz nəfər hadisə yerində, bir nəfər isə xəstəxanada keçinib.

### İran regionu nəzarət altında saxlamaq niyyətində deyil



"İran İslam Respublikası regionu nəzarət altında saxlamaq və hər hansı bir dövlətə hücum etmək niyyətində deyil". Bu sözləri İranın xarici işlər naziri Məhəmməd Zavad Zərif Almaniyanın "Şpigel" jurnalına verdiyi müsahibəsində deyib.

Nazir bildirib ki, regionun bəzi dövlətləri İrana qarşı tətbiq edilən iqtisadi sanksiyaların aradan qaldırılmasını istəmirlər. "Onlar qorxurlar İran bölgəni nəzarət altına alıb digər dövlətlərə təzyiq edəcək. Lakin rəsmi Tehran nüvə proqramı ilə əlaqədar danışıqlar prosesinə başlamaqla digər dövlətlərə təsir etmək yox, dünyaya inteqrasiya etmək məqsədlərini güdür", - deyə o bildirib.

### Ukrayna Rusiya ilə sərhəddə iki min kilometr uzunluğunda hasar çəkəcək



Ukrayna hökuməti Rusiya ilə sərhəddə təhlükəsizlik hasarının tikintisinə dair qərarı təsdiqləyib. AZƏRTAC xəbər verir ki, Baş nazir Arseni Yatsenyukun imzaladığı müvafiq sənəd Nazirlər Kabinetinin portalında yerləşdirilib. Sənədə əsasən, hasarın çəkilməsinə 2015-ci ildə 50 milyon dollar, 2019-cu ilədək isə ümumilikdə 200 milyon dollar vəsait ayrılıb.

Hərbi əməliyyatların keçirildiyi ərazilərdə, həmçinin Krımın yaxınlığında - Ukrayna ilə Rusiya sərhədində çəkiləcək hasarın uzunluğu iki min kilometr olacaq. Bundan əlavə, sərhəddə tanklar üçün sığınacaqlar, 17 metr hündürlüyündə müşahidə qüllələri, siqnalizasiya və sərhədçilər üçün dayaq məntəqələri də quraşdırılacaq.

### Suriyada İŞİD-in başçılarından biri öldürülüb



ABŞ-ın xüsusi təyinatlı qoşun hissələrinin ötən gecə Suriyanın şərqində apardığı əməliyyatlarda İŞİD ekstremist qruplaşmasının başçılarından biri olan Abu as-Səyyaf məhv edilib, arvadı isə əsir götürülüb.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə şənbə günü Pentaqonun rəhbəri Eşton Karter məlumat verib. Onun dediyinə görə, Prezident Barak Obamanın sanksiyası ilə keçirilən əməliyyatın məqsədi Abu as-Səyyafın tutulması olub. O, Amerikanın xüsusi təyinatlılarına müqavimət göstərib və öldürülüb.

### "Forbes" jurnalı "Apple"ni bu ilin ən qiymətli şirkəti seçib



Məşhur "Forbes" jurnalı 2015-ci il üçün "Dünyanın ən qiymətli 100 şirkəti"nin siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalın yaydığı məlumatda deyilir.

Dəyəri 145,3 milyard dollar olan ABŞ-ın "Apple" şirkəti siyahının ilk sırasında qərarlaşıb. ABŞ şirkətlərinin çoxluq təşkil etdiyi ilk onluqda Koreyanın "Samsung" və Yaponiyanın "Toyota" şirkətləri də yer alıb.

### Dünyada ən çox öyrənilən dillər



Dünyada ən çox istifadə olunan ünsiyyət vasitəsi ingilis dilidir. Bu dili öyrənmək istəyənlərin sayı 1,5 milyard nəfərdir. Dünyanın 35 ölkəsində ingilis dili rəsmi dil kimi istifadə olunur.

AZƏRTAC xəbər verir ki, ingilis dilində dünyanın 101 ölkəsində danışılır. İkinci yerdə ərəb dilidir. Altmış ölkənin əhalisi bu dildə ünsiyyət qurur. Sonrakı yerlərdə fransız (51 ölkə), Çin (33), ispan (31), fars (29), alman (18), rus (16) dilləri qərarlaşıb.

Araşdırmada həmçinin bildirilir ki, hazırda dünyada 7102 canlı dil var. Elə dillər də var ki, onların daşıyıcılarının sayı 1000 nəfərdən də azdır. Belə dillərin əsrin sonunadək itəcəyi qeyd olunur.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# "Bu gün mən də əsgərəm!"

## Müsahibimiz qiraət ustası, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Məleykə Məmmədovadır

***Məleykə xanım qarabağlıdır, Cəbrayıl rayonunun Mərcanlı kəndində dünyaya göz açıb. 18 il o torpağın üstündə gəzib, o yerlərin havasını udub, suyunu içib, çörəyini yeyib. Bu gün Bakıda yaşasa da, özünü o torpağa borclu sayır. Borcunu ödəmək üçün Tanrıdan rüsxət istəyir. İstəyir ki, Şuşaya, Xankəndiyə, Cəbrayıla, Zəngilana gedən yollarımız tezliklə açılsın, doğma ocaqlarına qayıtsın, atasının məzarını ziyarət etsin, doğulduğu evə, təhsil aldığı məktəbə baş çəksin...***



- Ömrümün qalan hissəsini ata ocağında yaşamaq istəyirəm, - deyə müsahibim özü söhbətə başlayır: - İnsan harda doğulubsa, torpaq maqnit kimi onu ora çəkir. Atamı dünyanın ən xoşbəxt insanı sayıram. O dünyasını vaxtsız dəyişsə də, öz kəndində, öz torpağında dəfn olundu. Musa Yaqub bu şeir parçasında elə bil məni anladır:

"Bəlkə də borcundan
çıxmadım, Vətən!!!
Ömür bahar deyil bir
də qayıtsın.
Ölsəm də qoynunda
qoy ölüm ki, mən,
Çürüyüm bir ovuc
torpağın artsın!!!"

***- Məleykə xanım, son vaxtlar ordu quruculuğu sahəsində aparılan islahatlar cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılanır. Bir ziyalı kimi bu barədə fikrinizi bilmək maraqlı olardı.***

- Biz iki yüz il çar Rusiyasının, 70 illik zaman kəsiyində isə Sovet imperiyasının nəzarətində yaşadıq. Aydınlarımızın təəssübkeşliyi, fədakarlığı və hünəri sayəsində xalqımız qaranlıqdan işığa çıxdı. Şərqdə ilk müsəlman ölkəsi olaraq öz müstəqilliyimizi elan etdik. Demokratik dəyərlərə söykənən ölkəmizin ilk hərbi hissəsi - Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Ordu quruculuğu sahəsində göstərdiyimiz cəhdlərin qarşısı Sovet imperiyası tərəfindən alınsa da, müstəqilliyimizin bərpası, ilk növbədə milli ordumuzun yaradılması ilə nəticələndi. Bu gün biz Əlahiddə Azərbaycan Korpusunun yarandığı günü - 26 İyunu Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü kimi qeyd edirik. Bu bayramın qəlbimizdə oyatdığı duyğuları Zəlimxan Yaqub necə də gözəl ifadə edib:

"Mənə ordu gərəkdir,
xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir,
sarsılmaz cahan kimi,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!"

Babalarımızın bir kəlamı var: "Çörəyi ver çörəkçiyə, birini də üstəlik". General-polkovnik Zakir Həsənovun Müdafiə naziri təyin olunmasını ordu quruculuğu sahəsində aparılan islahatların uğurlu başlanğıcı saymaq olar. Bu gün Müdafiə nazirinin gördüyü işlərin miqyası ölçüyə gəlməzdir. Bir də axı görülən dağa nə bələdçi? Tam səmimiyyətimlə deyirəm: Azərbaycan Ordusundakı ciddi nizam-intizamın, əsgərlərimizə göstərilən diqqət və qayğının şahidi olduqca torpaqlarımızın geri alınacağına ümidlərim birə-min artır. İstərdim xalqımız öz ordusuna güvənsin, ona dəstək olsun. Bu gün bütün fəaliyyətlərimizin hədəfi gərək bir istiqamətə yön alsın: "Hər şey ordu üçün, hər şey qələbə üçün!"

***- Həyatınızı teatr təhsilinə bağlamısınız. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğulsunuz. Eyni zamanda bədii qiraət ustası kimi sizi daha çox efirlərdən görüb, tanımışıq. Son vaxtlar isə səsiniz cəbhə bölgələrindən, hərbi hissələrdən gəlir. Müdafiə Nazirliyinin rayon İcra hakimiyyətləri ilə birlikdə bölgələrdə keçirdiyi hərbi vətənpərvərlik tədbirlərində fəal iştirak edirsiniz...***

- Məşğul olduğum bədii qiraət sənəti ciddi sənət sahələrindən biridir. Bu sənət ifaçıdan böyük məsuliyyət tələb edir. Söylənən hər bir sözün, hər vurğunun anlamı olsun gərək. Axı biz qiraətçilər həm də təbliğatçılarıq; gözəl, ali hisslərin, müqəddəs duyğuların təbliğatçıları. Sənət adamı olaraq efirdə böyüyüb püxtələşdim. Qanlı Yanvar hadisələrindən sonra tamaşaçılarla canlı təmasa keçdim. Şəhidlərimizin anım mərasimlərində xalqımızın içində öləziyən ümid işığını yenidən alovlandırmaq, onlara ruh vermək üçün sənət dostlarımla birlikdə nələrdən keçmədik, nələrdən... Bu gün mən də bir əsgərəm: Söz əsgəri! İkinci Dünya savaşı zamanı ön cəbhədə əsgərlər qarşısında çıxışlar edərək onları döyüşə ruhlandıran sənət adamlarının missiyasını davam etdirmək bu gün bir başqa duyğular oyadır qəlbimdə. Bu da bir tarixdir, yaşanan və yaşadığım tarix!

Bəli, son illər demək olar ki, hər ay cəbhə bölgələrində, ordu hissələrində əsgərlərimizlə, yerli əhali ilə görüşlərdə oluram. Əsgərlərin qarşısında çıxış etmək böyük məsuliyyətdir. Mən bunu hər dəfə bütün varlığımla hiss edirəm. Nə gizlədim, məni onların alqışlarından çox ürəklərindən keçən duyğuları maraqlandırır. Açığı, əsgərlərlə olan bu görüşlər mənə mənəvi bir rahatlıq gətirir. Bunu Vətənə borcumu ödəmək üçün Tanrının mənə verdiyi bir şans hesab edirəm. Fürsətdən istifadə edib bu işdə mənə dəstək olan Müdafiə Nazirliyinin rəhbərliyinə, o cümlədən Nazirliyin Mənəvi Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbaniyə, həmçinin Azərbaycan Silahlı Qüvvələri Mahnı və Rəqs Ansamblının rəisi polkovnik-leytenant Zöhrab İmamquliyevə təşəkkürümü bildirirəm.

***- Sizi orduya, hərbi həyata bağlayan hansı amillərdir, hansı duyğulardır?***

- İlk növbədə xarakterim. Zahirən mülayim görünsəm də, təbiətcə çox sərt adamam. Tələbkaram. Qanun-qaydalara ciddi riayət etməyi sevənəm. Mühafizəkar bir ailədə tərbiyə almışam. Valideynlərim tərəfindən haçansa başımın sığallandığını, hər hansı bir uğuruma görə alnımdan öpüldüyünü heç bir zaman duymadım, tam tərsinə... Bu da həyatın sınağı idi. Bəlkə də başqası olsaydı, ruhdan düşərdi, ürəyində qövr edən arzularından vaz keçərdi. Mən isə inadkarlığımda davam etdim. Mənə elə gəlir ki, insan mübarizə aparmaq gücündə deyilsə, o yaşamır demək. Xalqlar, millətlər də elədir. Hər bir millətin mübarizə əzmi həm də onun ordusunun gücündə, qüdrətində hiss edilir.

***- Söhbətimizdən öyrəndim ki, Cəbrayıl torpağında dünyaya göz açmısınız. Təəssüflər olsun ki, neçə illərdir o doğma ocaqlar erməni qəsbkarlarının işğalı altındadır. O yerlərin həsrəti, nisgili ürəyimizi ağrıdır, qəlbimizi göynədir...***

- Atamın anası xeyirdə-şərdə hər zaman "qəribəm" deyib ağlayardı. Bu mənim uşaq qəlbimi dağlayardı. Qarabağ hadisələri zamanı öyrəndim ki, keçən əsrin əvvəllərində nənəmin yaşadığı Şəki kəndi Xocalı şəhəri kimi bir gecənin içində erməni-bolşevik ordusu tərəfindən viran edilib; nənəmin 5 yaşı olanda gecəynən ayağı kolkosa ilişərək öz yurd-yuvasından didərgin düşüb. Bir nəsildə iki dəfə didərgin həyatı yaşamaq heç kəsə asan gəlməsin... Bu, insanlığın faciəsidir.

Qarabağ müharibəsi zamanı Cəbrayıldan son çıxanlardan biri anam olub. Özünə qalsaydı, heç vaxt tərk etməzdi oraları. Əsgərlərimiz onu zorla Arazdan o taya keçirmişdilər. Anam Cəbrayılın necə işğal olunduğunu ilk dəfə mənə danışanda heyrət içində qaldım. Bu necə ola bilərdi? Bütün bunları işğaldan bir neçə gün öncə yuxumda görmüşdüm axı... O vaxtdan düz 22 il keçir. Hər dəfə yuxuma girir doğma yurdum; "kəhriz"lər, artezian quyuları, kəndimizin bu başından o başına uzanan çığırlar və bir də məktəb yolları...

Bu yaxınlarda Müdafiə Nazirliyinin xətti ilə Horadiz şəhərində oldum. Ordan kəndimizə dəmir yol xətti uzanır. Həmin xəttin üstündən keçəndə bədənim uçundu: o yolun işığına düşüb kəndimizə doğru yüyürmək keçdi içimdən. Hələlik yüyürə bilməyəcəkdim. Ancaq inandım ki, Ali Baş Komandanımızın hər əmrinə hazır olan əsgərlərimiz bu istəyimi yaxın vaxtlarda gerçəkləşdirəcəklər.

***- Zabit və əsgərlərimizə ürək sözlərinizi eşitmək də yaxşı olardı.***

- Bu yerdə Cabir Novruzun bir şeiri yadıma düşür:

Vətəni qorudun, sənindir,
Qorumadın, özgənindir…
Qorumadın, yağınındır,
Qorumadın, axırındır…

Vətəni qorudun, sənindir,
O bayraq tutan əlindir,
O qılınc tutan qolundur,
Ömrün, əqidən yolundur…

Son olaraq Qabilin fikrinə şərik olaraq Vətən övladlarına üz tutaraq deyirəm: ümid sənədir ancaq, Azərbaycan əsgəri!

**Söhbəti yazdı:**
**mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müsabiqə: "Əsgər yaradıcılığı"





Mayın 16-da Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Silahlı Qüvvələrin "Əsgər yaradıcılığı" müsabiqəsi keçirilib. Müsabiqənin təşkilatçısı Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi idi. İdarənin şöbə rəisi polkovnik Nazim Əhmədov müsabiqəni açıq elan edərək bildirdi ki, bu tədbir Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə keçirilir. Bu tədbirlər Silahlı Qüvvələrin bütün birlik və birləşmələrində keçirilir.

Bakı şəhərində və onun ətrafında yerləşən hərbi hissə, hərbi təhsil müəssisələrinin, Hərbi Dəniz Qüvvələrinin, Hərbi Hava Qüvvələrinin şəxsi heyətinin nümayəndələri yaradıcılıq müsabiqəsində fəal iştirak ediblər. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının rəhbəri polkovnik-leytenant Zöhrab İmamquliyev və ansamblın tar ifaçısı hərbi qulluqçu İlqar Əliyev müsabiqəyə qatılan əsgərlərin musiqi duyumuna münasibət bildirir, onların ifalarına, səhnə mədəniyyətinə diqqət yetirərək qiymət verirdilər.

Müsabiqə zamanı "N" hərbi hissəsinin əsgərlərinin ifaları maraq doğurdu. Əsgər Abbasxan Abbaszadənin oxuduğu "Azərbaycan" mahnısı, əsgər Tofiq Həmidovun "Qarabağ şikəstəsi", Soltan Hacıbəyov adına Sumqayıt Musiqi Kollecinin məzunu olan əsgər Vüqar İsmayılovun və qarmonda Cəlal Cəlilovun ifaları münsiflər tərəfindən yüksək qiymətləndirildi. Qalib əsgərlərin müsabiqəyə hazırlanmasında əməyi olan polkovnik Valeh Rəcəbov hərbi bölmələrdə şəxsi heyətin yaradıcılıq imkanlarını üzə çıxarmaq üçün kifayət qədər işlər görüldüyünü vurğuladı.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarından ibarət qrupun ifasında səslənən "Torpağın səsi" mahnısı müsabiqəyə xüsusi rəng qatdı. Ali hərbi məktəblərin kursantlarının bədii qiraəti, musiqi alətlərində ifaları da münsifləri qane etdi.

Silahlı Qüvvələrin "Əsgər yaradıcılığı" müsabiqəsinin sonunda qaliblər müəyyən olundu. Polkovnik Nazim Əhmədov bildirdi ki, Gəncə Zabitlər Evində də belə tədbirlər keçirilir və yarışmanın yekununda Müdafiə nazirinin əmri ilə qaliblər mükafatlandırılacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Fiziki hazırlıq

# İdman sağlamlığın rəhnidir



- Şəxsi heyət fiziki hazırlıq məşğələlərində həvəslə iştirak edir, - deyə kapitan Anar Abbasov qeyd etdi ki, əsgərlər yorulmaq bilmədən məşq edir, fiziki hazırlıqlarını artırırlar.

Hərbi hissəmizdə müasir idman şəhərciyi var. Vətənə ləyaqətlə xidmət edən əsgərlər məşğələ saatlarında qurğularda müxtəlif tapşırıqları yerinə yetirir, yeni vərdişlərə yiyələnirlər.

Kapitan Anar Abbasovla söhbətimizi bitirəndən sonra hərbi hissənin idman şəhərciyində məşğələ keçən şəxsi heyətin yanına yollandıq. Əsgərlər müxtəlif idman qurğularında tapşırıqları yerinə yetirirdilər. Onların cəld və çevik hərəkətlərindən bacarıqlı olduqları duyulurdu.

İlk olaraq şəxsi heyətə məşğələ keçən zabitlə - baş leytenant Mirdamət Bağıyevlə görüşdük. O söhbətində bildirdi ki, əsgərlərimiz fiziki hazırlıqlarını artırmaq üçün məşğələlərdə fəal iştirak edirlər. Ən başlıcası odur ki, şəxsi heyət tapşırıqları səhvə yol vermədən, qüsursuz yerinə yetirməyə səy göstərir. Məşğələyə diqqət və məsuliyyətlə yanaşdıqlarına görə əsgərlər tələb olunan normativləri ödəməkdə çətinlik çəkmirlər. Fiziki hazırlıqlarını artırmağa maraq göstərən əsgərlər təkcə məşğələ zamanı deyil, istirahət və asudə vaxtlarında da idman şəhərciyinə gələrək məşq edirlər. Fikir verirsinizmi, onlar idman qurğularında necə də cəld və çevik hərəkətlər edirlər. Təbiidir ki, belə vərdişlər gərgin keçən məşğələlərdə qazanılıb.

Söhbətinə davam edən baş leytenant Mirdamət Bağıyev daha sonra fiziki hazırlıq məşğələsində fərqlənənlərdən də söz açdı. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularından Ansin Əliyev, Emin Allahverdiyev, Fərid Məmmədli, Ruslan Şahbazov, Tural Bəxtiyarov, Anar Qədirzadə, Aslan Hüseynov, əsgərlərdən Fuad Vəliyev, Zaliddin Əlibəyov, Polad Abbasov, Taleh Ağayev və kiçik çavuş Səxavət Bayramovun adlarını çəkdi. Qeyd etdi ki, onlar Silahlı Qüvvələrin idman birinciliklərində də hərbi hissəmizin şərəfini uca tuturlar.

- İdman sağlamlığın rəhnidir, - deyə kiçik çavuş Səxavət Bayramov bildirdi ki, həm fiziki hazırlıq məşğələlərində, həm də asudə vaxtlarımızda idman şəhərciyinə gələrək məşq edir, hazırlığımızı artırmağa çalışırıq.

Şəxsi heyətin fiziki hazırlıq məşğələsi davam edir. Əsgərlər müxtəlif idman qurğularında fiziki hazırlıqlarını artırırlar.

**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015 ilk Avropa Oyunlarına velosipedlə" yürüş




"Bakı-2015 ilk Avropa Oyunlarına velosipedlə" layihəsi çərçivəsində mayın 5-də Dubrovnik şəhərindən yola düşən Xorvatiyanın "Pedalinac" velosiped klubunun üzvləri Türkiyəyə çatıblar.

Mayın 20-də yürüş iştirakçıları Bakı istiqamətində hərəkətə başlayacaqlar. Velosipedçilər 35-40 gün ərzində Xorvatiya, Monteneqro, Albaniya, Makedoniya, Yunanıstan, Türkiyə, Gürcüstan və Azərbaycan əraziləri ilə təqribən 4000 kilometr məsafə qət etdikdən sonra birinci Avropa Oyunlarının açılış mərasiminə qatılacaqlar. Layihə birinci Avropa Oyunlarının təbliği məqsədini daşıyır.

## Azərbaycan taekvondoçusu Rusiyada keçirilən dünya çempionatında qızıl medal qazanıb



Rusiyanın Çelyabinsk şəhərində keçirilən böyüklər arasında taekvondo üzrə dünya çempionatında iştirak edən yığma komandamızın üzvü Radik İsayev (87 kq) bütün rəqiblərinə qalib gələrək dünya birincisi olub.

AZƏRTAC xəbər verir ki, kişilərdən ibarət komandamız yarışa baş məşqçi Reza Mehmandostun, Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidentləri Nağı Səfərovun və Niyaməddin Paşayevin rəhbərliyi ilə qatılıb.

## Azərbaycan üzgüçüsü Seulda qalib oldu



Cənubi Koreyanın Seul şəhərində paralimpiyaçılar arasında keçirilən Ümumdünya oyunları idmançılarımız üçün uğurlu olub.

Apasport.az saytının xəbərinə görə, təmsilçilərimizdən Dmitri Saley 100 m məsafəyə üzgüçülük yarışlarında birinci yeri tutub. Digər üzgüçümüz Roman Saley isə Ümumdünya oyunlarının bürünc medalını qazanıb. Hər iki idmançı "Neftçi İdman Klubu"nu təmsil edir.

## Qurban Qurbanov: Çətin mübarizədən sonra çempion olduq




Topaz Premyer Liqasının 34-cü turunda "Sumqayıt"ı 1-0 hesabı ilə məğlub edən "Qarabağ" cari mövsümün çempionu oldu. AZƏRTAC xəbər verir ki, yeganə qolu 33-cü dəqiqədə Leroy Corc vurub. Turun bitməsinə iki oyun qalsa da, komanda artıq 68 xalla çempionluğunu təmin edə bilib.

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov komandaya aidiyyəti olan hər kəsi çempionluq münasibətilə təbrik edib. "Son turlar bir qədər ağır, stressli alındı. Ümumiyyətlə, ağır mövsüm keçirdik. Çətin mübarizədən sonra çempion olduq. Futbolçular layiqli mübarizə apardılar. İndi qarşıda bizi Azərbaycan Kubokunun finalı gözləyir. Həmin matça qədər vaxtımız var. Belə bir şans futbolçunun, məşqçinin əlinə həmişə düşmür. Vəziyyətdən düzgün istifadə etməyi bacarmalıyıq", - deyə o bildirib.

## Böyüklər arasında stolüstü tennis üzrə TOP-12 reytinq turniri başa çatıb



AZƏRTAC xəbər verir ki, Azərbaycan Stolüstü Tennis Federasiyasının təşəbbüsü ilə "Şüa" İdman-Sağlamlıq kompleksində keçirilən böyüklər arasında TOP-12 reytinq turniri başa çatıb.

Kişilərin yarışında birinci yeri Ramil Cəfərov, ikinci yeri Fərhad İsmayılov, üçüncü yeri isə Cəfər Cəfərzadə tutub. Qadınların yarışında qızıl medalı Çjou Çui qazanıb. R.Quliyeva və Denq Simenq müvafiq olaraq 2-ci və 3-cü yerləri tutublar.

Qaliblərə Azərbaycan Stolüstü Tennis Federasiyasının diplomları təqdim edilib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 457
Nüsxə 4600